BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT 347.73; 351.72; 349; 336,5; 347.734**

# BAZAR İQTİSADİYYATININ TƏNZİMLƏNMƏSİNDƏ BANK SİSTEMLƏRİNİN ROLU

**R.N.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***
***ruslan_mammadli@yahoo.com***

*Məqalədə bazar iqtisadiyyatının tənzimlənməsində bank sistemlərinin rolu hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi, Azərbaycan Respublikasının bank qanunvericiliyi və beynəlxalq praktika əsasında ətraflı şəkildə nəzərdən keçirilir. Qeyd edilir ki, banklar müxtəlif funksiyalar yerinə yetirməklə, öz aralarında və digər təsərrüfat subyektləri ilə mürəkkəb münasibətlərə daxil olur və beləliklə də, bazar iqtisadiyyatının tənzimlənməsində əvəzsiz rola malik olurlar. Bu kontekstdə müəllif bank sistemlərinin inkişaf tarixinin, bank sistemlərinin qurulmasının ümumi xüsusiyyətlərinin, bank sisteminə daxil olan müxtəlif növ bankların (mərkəzi, kommersiya, investisiya, əmanət, ipoteka, istehlak krediti banklarının, bank holdinqlərinin), maliyyə-bank sektorunun inkişafının ətraflı araşdırılmasına xüsusi diqqət yetirir.*

**Açar sözlər:** kommersiya bankları, pul dövriyyəsi, bazar iqtisadiyyatı, pul əməliyyatları, banklar, bank sistemləri, bank fəaliyyəti, beynəlxalq iqtisadiyyat, ticarət, kredit təşkilatları

Banklar müxtəlif funksiyalar yerinə yetirməklə, öz aralarında və digər təsərrüfat subyektləri ilə mürəkkəb münasibətlərdə olur. Ona görə də, bank sisteminin dəqiq və müntəzəm fəaliyyətini istənilən dövlətin normal iqtisadi inkişafının vacib şərti hesab etmək olar. Bank sistemində stabil vəziyyət iqtisadi çiçəklənmənin zəruri şərtidir. İstənilən dövlətin bank sistemi ümumi pul-kredit mexanizmi çərçivəsində fəaliyyət göstərən milli bankların, bank institutlarının və digər kredit təşkilatlarının müxtəlif növlərinin məcmusunu özündə əks etdirir.

**Bank sistemlərinin qurulmasının ümumi xüsusiyyətləri.** Ümumiyyətlə, bank sistemi dedikdə, pul-kredit bazarının – kommersiya və ixtisaslaşmış bankların, bank olmayan kredit təşkilatlarının məcmusu nəzərdə tutulur (6, 9). Bazar iqtisadiyyatlı inkişaf etmiş ölkələrin bank sistemləri iqtisadi inkişafın ümumi istiqaməti ilə bağlı ümumi xüsusiyyətlərə və milli iqtisadiyyatın və pul bazarının inkişaf spesifikliyi ilə əlaqədar özünəməxsus xüsusiyyətlərə malikdir. Bank sistemlərinin qurulmasının ümumi xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- İnkişaf etmiş ölkələrin ikipilləli bank sistemi. Birinci pilləni dövlətin mərkəzi bankı tutur, ikinci pillədə isə bank xidmətində iqtisadi subyektlərin tələblərini qarşılayan kredit və maliyyə təşkilatları (maliyyə vasitəçiləri və ya kommersiya bankları) durur;
- Kommersiya banklarının fəaliyyətinə nəzarət sistemləri. Nəzarət strukturlarının qurulması vasitələrinə görə 3 qrup dövlətləri fərqləndirmək olar: 1) nəzarəti mərkəzi bank həyata keçirən ölkələr; 2) dövlətin bu səlahiyyəti verdiyi digər orqanlar; 3) nəzarətin mərkəzi bankla birgə digər dövlət idarəçiliyi orqanları tərəfindən həyata keçirildiyi dövlətlər.
- Bank fəaliyyətinin və pul-kredit sferasının tənzimlənməsinin forma və metodları. Lisenziyalaşdırma, prudensial nəzarət, mərkəzi bankların valyuta bazarında əməliyyatları, hesablaşma formalarının unifikasiyası (10).

Bank sistemlərində adətən mərkəzi banklar idarəetmə, nəzarət və tənzimləyici funksiyaları həyata keçirir. Əksər dövlətlərdə mərkəzi bank dövlətə məxsus olur. Lakin dövlətin rəsmi olaraq mərkəzi bankın kapitalına malik olmadığı dövlətlər (ABŞ, İtaliya, İsveçrə), həmin kapitalın bir hissəsinə malik olduğu dövlətlər (Belçika, Yaponiya) də var. Mərkəzi bank dövlət orqanı funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasında (AR) bu məsələ ilə bağlı əsas norma AR Konstitusiyasının 19.2-ci maddəsidir. Həmin maddədə qeyd edilir ki, AR Mərkəzi Bankı dövlətin müstəsna mülkiyyətindədir (2). Bununla yanaşı, AR Mərkəzi Bankı haqqında Qanunun 6-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən, Mərkəzi Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz (1).

Mərkəzi bankların fəaliyyətinin məqsədi: a) milli valyutanın sabitliyinin təmin edilməsi və müdafiəsi; b) daxili bank sisteminin inkişafı və möhkəmləndirilməsi; c) ödəniş sisteminin effektiv və müntəzəm fəaliyyətinin təmin edilməsidir. Bir qayda olaraq, gəlir əldə etmək mərkəzi bankın fəaliyyət məqsədi hesab olunmur. Mərkəzi banklar növbəti funksiyaları həyata keçirir: 1) digər dövlət orqanları ilə razılaşdırılmaqla milli valyutanın sabitliyinin təmin edilməsi və müdafiəsinə yönəlmiş vahid pul-kredit siyasətinin hazırlanması və həyata keçirilməsini; 2) nağd pul nişanlarının tədavülə buraxılmasını; 3) kommersiya bankları üçün sonuncu instansiya kreditoru, təkrar maliyyələşmənin qaydalarını müəyyənləşdirilməsini; 4) hesablaşmaların həyata keçirilməsi qaydalarını müəyyən edilməsini; 5) bank əməliyyatlarının həyata keçirilməsi, mühasibat uçotu və banklar üçün hesabat qaydalarını müəyyənləşdirilməsini; 6) kommersiya banklarının fəaliyyətinə nəzarətin həyata keçirilməsini; 7) gəlir və xərclər üzrə ölkə büdcəsinin hesablarının aparılmasını; 8) dövlətin qızıl ehtiyatlarının qorunub saxlanmasını; 9) valyuta nəzarəti və valyuta tənziminin həyata keçirilməsi, həmçinin xarici dövlətlərlə hesablaşmaların həyata keçirilməsi

qaydalarının müəyyən edilməsini; 10) pul-kredit sferasının vəziyyətinin təhlili, ölkənin ödəniş balansı üçün qısamüddətli və uzunmüddətli proqnozların, valyuta-maliyyə münasibətləri və iqtisadiyyatın vəziyyətinin tərtib edilməsini; 11) pul-kredit sferası üzrə məlumatların statistikasının, nəşrlərinin həyata keçirilməsi və sistemliliyinin aparılmasını (13).

Yuxarıda qeyd edilən funksiyaların əksəriyyəti müxtəlif dəyişikliklərlə əksər dövlətlərin mərkəzi banklarının funksiyalarında öz təsbitini tapmışdır. AR Mərkəzi Bankı haqqında Qanununda Mərkəzi Bankın aşağıdakı funksiyaları göstərilmişdir:

- dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;
- nağd pul dövriyyəsini təşkil edir, pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;
- manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;
- qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;
- sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;
- qanunvericiliyə uyğun olaraq hesabat tədiyyə balansını tərtib edir və ölkənin proqnoz tədiyyə balansının hazırlanmasında iştirak edir;
- qanunvericiliyə müvafiq olaraq qəbul etdiyi normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;
- ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;
- qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir (1).

Bank sisteminin 2-ci pilləsini kommersiya bankları təşkil edir. Kommersiya bankları təsis edilməsi, əsas fəaliyyət sektorları, coğrafi fəaliyyət istiqamətləri və digər meyarlarına görə fərqləndirilir, lakin bütün banklar vahid tənzimetmə normaları çərçivəsində fəaliyyət göstərir. Bank sistemləri növbəti məsələlərlə bağlı cari və strateji problemlərin həllində mühüm rol oynayırlar: 1) iqtisadi inkişafın təmin edilməsi; 2) inflyasiyanın tənzimlənməsi; 3) ödəniş balansının tənzimlənməsi. Bank sisteminin əsas xarakterik xüsusiyyətləri onların birləşməsi və kifayət qədər geniş ixtisaslaşmasıdır. Mərkəzi (emission), kommersiya, investisiya, ipoteka, yığım və digər banklar mövcuddur. Bu səbəbdən, bir tərəfdən, ehtiyatların cəlb edilməsi üzrə bankların rəqabəti, digər tərəfdən bankların fəaliyyətinə dövlətin müdaxiləsi artır.

***Bank sistemlərinin inkişaf tarixi***. Beynəlxalq bank sistemi uzun tarixi dövr ərzində formalaşmışdır. İlk banklar XVI-XVII əsrlərdə İtaliyada (Venesiya, Genuya, Milan şəhərlərində) yaranmışdır. Həmin banklar vasitəsilə ilk dəfə olaraq nağdsız hesablaşmalar aparılmışdır. Həmin dövrdən başlayaraq, jiro-banklar, bir qədər sonra isə mərkəzi banklar yaranmağa başladı. 1694-cü ildə təsis edilmiş İngiltərə Bankı ilk səhmdar bank kimi hökumətdən banknot

buraxmaq səlahiyyəti almışdı (7, 10).

Mərkəzi bankların hansı qaydada yaranması haqqında bir çox fərziyyələr var. Mərkəzi banklar məqsədi gəlir əldə etmək olan xüsusi təsisatdan öz mənşəyini götürə bilər. Digər səbəb isə, hökumət xərclərinin maliyyələşdirilməsinin həyata keçirilməsinə kömək zərurəti ola bilər. Məhz bu səbəb İngiltərə, Fransa və digər Avropa dövlətlərində mərkəzi bankların yaranması səbəbi kimi çıxış etmişdir. Maliyyə xərclərinin təmin edilməsi məqsədilə İngiltərə Kralı II Karl London bankirlərinin kreditlərinə müraciət etməli olmuşdu. Lakin II Karlın öz öhdəliklərini icra etməməsi səbəbindən başqa bir maliyyə mənbəyi tapılmalı idi. Nəticədə Kral III Vilyam və onun hökuməti Şotlandiya maliyyəçisi Vilyam Pettersonun sxeminə müraciət etməli oldu. Bu sxem əsasında "İngiltərə Bankı nəzdində İdarəçi və Ko" adlı institut yaradıldı. Bu institutun təsis edilməsi Tennec Qanunu ilə rəsmiləşdirildi (10).

İngiltərə Bankı yaranmasının ilk illərindən ölkənin bankları arasında müstəsna yer tutmuş və artıq 1697-ci ildə İngiltərə Hökuməti Banka şəxsi kapitalını artırmaq və banknot buraxmaq səlahiyyəti verdi. Hökumətin bütün hesablaşmaları məhz bu bank vasitəsilə aparılmalı idi. Bu dövrdə Hökumət bank işində müəyyən dəyişikliklər etdi. Yeni dəyişikliklərə müvafiq olaraq, heç bir bank Parlament tərəfindən xüsusi qanun qəbul edilmədən təsis edilə bilməzdi. Bundan başqa, hökumətin tətbiq etdiyi digər dəyişiklik ondan ibarət idi ki, İngiltərə Bankı nəzdində İdarəçi və Ko adlı institutun hər hansı bir hərəkəti nəticəsində vurulmuş ziyana görə korporasiya üzvlərinin əmlakı kompensasiya qismində çıxış etməli deyildi. Bu müddəa İngiltərə Bankına məhdud məsuliyyət imtiyazı verirdi. Bu imtiyaz növbəti yarım əsr ərzində heç bir banka verilməmişdir.

XVIII əsrdə İngiltərə Bankının Hökumətlə əlaqəsi daha da dərinləşməyə başladı. Bankın səlahiyyətlərinin genişlənməsi ona maliyyə aləmində nüfuz sahibi olmağa imkan verdi. 1780-ci ildə əksər özəl banknotlar Londonda öz fəaliyyətini dayandırdı, xırda özəl firmalar Bankla rəqabətə tab gətirmirdi. XIX əsrin birinci yarısında sərbəst bank biznesini məhdudlaşdıran normativ-hüquqi aktlar vasitəsilə vahid ehtiyat sistemli mərkəzləşmiş bank biznesi formalaşdı. 1844-cü ildə İngiltərə Bankı bütün emissiya fəaliyyətini öz əlinə keçirdi (6, 13).

Artıq İngiltərədə ikipilləli bank sistemi fəaliyyət göstərirdi. Bu sistem növbəti əlamətləri ilə xarakterizə olunurdu: a) emissiya fəaliyyətinin tamamilə İngiltərə Bankının əlində cəmlənməsi; b) İngiltərə Bankının buraxdığı banknotların qanuni ödəniş vasitəsi kimi qəbul edilməsi; c) bankların birləşməsinə, emissiya fəaliyyətinə və depozit banklarının təsis edilməsinə qanunvericilik məhdudiyyətinin qoyulması; ç) İngiltərə Bankının ölkənin mərkəzi bankı kimi digər bankların fəaliyyətinə və məcmu pul dövriyyəsinə nəzarəti həyata keçirməsi; d) dövlətin bank fəaliyyəti sferasına, bank əməliyyatlarının tənzimlənməsi və məhdudlaşdırılması məsələlərinə əhəmiyyətli dərəcədə müdaxiləsi.

İngiltərədə bank sisteminin formalaşması ilə eyni zamanda, Şotlandiyada

da analoji proseslər gedirdi. Şotlandiyada bank sferasının formalaşması və inkişafı İngiltərədən fərqli qaydada idi. Əvvəlcə burada 1695-ci ildə təsis edilmiş Şotlandiya Bankı tərəfindən banklara icazə konsessiyalarının verilməsi praktikası fəaliyyət göstərirdi. Şotlandiya Bankı Şotland Tacirləri Qrupu tərəfindən yaradılmışdır. Şotlandiya Bankı 21 il Şotlandiya Parlamenti tərəfindən verilən xartiya əsasında bank fəaliyyəti sferasında inhisarı ələ keçirmişdi. İngiltərə Bankından fərqli olaraq, Şotlandiya Bankının yerlərdə bölmələri fəaliyyət göstərirdi. 1727-ci ildə Şotlandiya Parlamentinin verdiyi 2-ci Xartiya ilə bank fəaliyyəti sferasında inhisar Şotlandiya Kral Bankına keçdi. Şotlandiya Kral Bankı bu xartiyanın alınmasından sonra məhdud məsuliyyət imtiyazı əldə etdi. Lakin səhmdar şirkətlər tərəfindən bank fəaliyyətinin həyata keçirilməsinə məhdudiyyət qoyulmurdu, bir şərtlə ki, səhmdarlar bankın borcu üçün öz kapitalı ilə tam məsuliyyət daşısın. Bu səbəbdən səhmdar bankların sayı artmağa başladı. Şotlandiyada bank sisteminin formalaşmasının spesifikliyi onda idi ki, burada banklar arasında ciddi rəqabət gedirdi (13).

XVII əsrin birinci yarısında Şotlandiyada 3 xartiya bankı (24 bölməsi ilə birgə), 22 səhmdar bank (97 bölməsi ilə birgə) və 11 özəl bank fəaliyyət göstərirdi. Bu dövrdə Şotlandiyada yalnız 1 iflas halı (Eyr Bank) baş vermişdi. Şotlandiyada bank fəaliyyətinə hökumətin müdaxiləsi az olsa belə, Britaniya qanunvericiliyinə tabe olmaqda davam edirdi.

Şotlandiyanın azad bankçılıq praktikası ABŞ-da bank sisteminin formalaşmasına təsir göstərmişdir. Xüsusi imtiyazlar və bank fəaliyyətinə ümumilikdə nəzarət kimi funksiyaların həyata keçirilməsi eyni zamanda mərkəzi banklar üçün öhdəliklər də yaradır, buna görə də, gəlir əldə etmə məqsədi mərkəzi banklar üçün demək olar ki, öz əhəmiyyətini itirməyə başladı. ABŞ-ın Federal Ehtiyat Sistemi bu meyarların təsiri altında formalaşmışdır.

Ümumiyyətlə, ABŞ bank sistemi, xüsusilə də, ABŞ dolları və bu valyuta ilə rəqabətdə formalaşan Avropa dövlətlərinin vahid valyutası müasir dövrdə bank sisteminin inkişafında həlledici rol oynamışdır. ABŞ dollarının uzun müddət ərzində Dünyada hegemon rolu beynəlxalq ticari-iqtisadi münasibətlərə və bu münasibətlərin əsas mexanizmi olan bankların fəaliyyətinə də öz təsirini göstərmişdir.

1944-cü il Bretton-Vuds Sazişinin imzalanmasından sonra, Dünya ehtiyat valyutası kimi ABŞ dollarının statusu ona bir çox üstünlüklər verdi. İlk növbədə, xaricdə milli valyutaya olan daimi tələbatdan istifadə edərək büdcə kəsirini emissiya vəsaitləri ilə maliyyələşdirmək imkanı, ikincisi, valyuta məzənnələrinin elastik faiz dərəcələrinə qarşı çıxaraq milli valyuta ilə cari əməliyyatların 160 mlrd. kəsirini maliyyələşdirmək. Belə vəziyyət Avropanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri üçün təhlükəli vəziyyət yaradırdı. Nəticədə Avropa dövlətləri iqtisadi inteqrasiya metoduna üz tutmalı oldu.

1957-ci il tarixli Roma Müqaviləsi Avropanın iqtisadi cəhətdən birləşməsi istiqamətində atılan ilk addım oldu. Roma Müqaviləsi vahid Avropa valyutasına keçidi aşkar şəkildə bəyan etməsə də, Avropa inteqrasiyasının əsas

prioriteti kimi valyuta məzənnələrinin sabitliyi məsələsini üzə çıxarmışdı. 1972-ci ildə Avropa ölkələri "üzən" məzənnələrin birgə tənzimlənməsi mexanizmini yaratdılar. 1991-ci ildə Avropa Komissiyasının Prezidenti J.Delor vahid avro valyutaya mərhələli keçidlə bağlı geniş proqramla çıxış etdi. Bu proqram 1992-ci il Maastrixt Müqaviləsinin imzalanması zamanı nəzərə alınmışdı. 2 may 1998-ci ildə Belçikanın paytaxtı Brüssel şəhərində 11 Qərbi Avropa dövlətinin (Avstriya, Almaniya, Belçika, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Finlandiya və Fransa) dövlət başçıları kollektiv pul sisteminə keçidlə bağlı memorandum imzaladılar. 1 yanvar 1999-cu ildən milli valyuta və EKYU nağdsız hesablaşmalarda avroya konvertasiya olundu. 2002-ci ildən isə artıq nağd dövriyyədə də avrodan istifadə tətbiq edilməyə başladı (7, 12-14).

Müasir bazar iqtisadiyyatı şəraitində bank sisteminin strukturu haqqında məsələ yenidən aktuallaşmışdır. Qərbi Avropa dövlətlərində bank nəzarətinin yeni sisteminə keçilməsi, avrozonanın yaradılması, qloballaşma prosesləri, maliyyə bazarlarının yenidən tənzimlənməsi ənənəvi ikipilləli bank sistemində dəyişikliklərə gətirib çıxarır. Maliyyə bazarlarının diversifikasiyası və inkişafı yüksəldikcə, mərkəzi bankların fəaliyyət effektivliyi zəifləyir.

**Bank sisteminə daxil olan müxtəlif növ banklar.** Müasir bank sistemləri mürəkkəb, çoxşaxəli struktura malikdir. Əgər təsnifatın əsası kimi göstərilən xidmətin xarakterini əsas götürsək, bank sisteminin 3 əsas elementini ayırmaq olar: 1) mərkəzi bank (emissiya bankı); 2) kommersiya bankları; 3) ixtisaslaşmış maliyyə təsisatları. Tarixi inkişaf gedişində seqmentləşdirilmiş və universal bank sistemləri də mövcud olmuşdur. Seqmentləşdirilmiş sistem sərt qanunvericilik bölgüsünü nəzərdə tutur. Oxşar strukturlar ABŞ və Yaponiyada mövcud olmuşdur. Universal strukturda qanun bank əməliyyatlarına münasibətdə məhdudiyyətlər nəzərdə tutmur. Bütün maliyyə-kredit institutları istənilən növ əqdləri həyata keçirə və müştərilərə bütün növ xidmətlər göstərə bilər. Universal bankların belə növü Böyük Britaniyada öz təsbitini tapmışdır. Bank sektorunun fəaliyyətində maliyyə institutlarının nəzarət səviyyəsi böyük rol oynayır. Bank sisteminə daxil olan bankları şərti olaraq, aşağıdakı kimi qruplaşdırmaq olar: Mərkəzi banklar; İnvestisiya bankları; Əmanət bankları; İpoteka bankları; İstehlak krediti bankları; Bank holdinqi.

***Mərkəzi banklar***. Bank sistemində mərkəzi bank "bankların bankı" rolunu oynamaqla, bankların və digər təsisatların məcburi ehtiyatlarını və sərbəst vəsaitlərini qoruyub saxlayır, onlara ssudalar verməklə, sonuncu instansiya kreditoru kimi çıxış edir. Mərkəzi bankın ən vacib funksiyalarından biri lisenziyalaşdırmadır. Lisenziya bank fəaliyyətinin həyata keçirilməsi üçün rəsmi icazə kağızıdır. Hər bir dövlətin milli qanunvericiliyi ilə lisenziyanın əldə edilməsi şərtləri müəyyən edilmişdir. Mərkəzi bank bankların ümumdövlət reyestrini aparır.

Müasir dövrdə əksər dövlətlərin qanunvericiliyində belə bir müddəa təsbit edilir ki, xarici dövlətin bankının başqa bir dövlətdə nümayəndəlik və ya

filialının açılması üçün mərkəzi bankın razılığı tələb olunur. Mərkəzi bank adətən ölkənin maliyyə nazirliyi ilə razılaşdırılmaqla sığorta və ehtiyat fondları yaradır. Bankların gəliri hesabına yaradılan bu fondlar vasitəsilə həmin bankların zərərləri silinir. Mərkəzi bank qayda pozuntuları aşkar edildikdə kommersiya banklarına təsir tədbirlərini də həyata keçirə bilər. Kommersiya banklarının özlərinin həyata keçirdiyi audit yoxlaması ilə yanaşı, mərkəzi bank da audit yoxlaması apara bilər. Mərkəzi bank kommersiya banklarına münasibətdə maliyyə sağlamlaşdırılması (sanasiya), bankın yenidən təşkili və tamamilə ləğvi tədbirlərini həyata keçirə bilər. Belə tədbirlərinin həyata keçirilməsi zamanı müvəqqəti inzibatçı təyin olunur.

***Kommersiya bankları***. Bank-kredit sisteminin əsas nöqtəsini təşkil edir. Kommersiya bankları bütün növ bank əməliyyatlarını həyata keçirir. Kommersiya banklarının tarixən formalaşmış funksiyaları: əmanətlərin cəlb edilməsi, ticarət və sənaye müəssisələrinin qısamüddətli kreditləşdirilməsi, hesablaşma-kassa əməliyyatıdır. Müasir şəraitdə kommersiya bankları müddətli və yığım əmanətlərinin cəlb edilməsini, orta müddətli və uzunmüddətli kreditləşmə, əhalinin kreditləşdirilməsi (istehlak kreditləri) işini əhəmiyyətli dərəcədə genişləndirə bilmişdir. Kommersiya bankları paylar və səhmlər əsasında təsis edilir. AR bank qanunvericiliyinə müvafiq olaraq (4), bank ən azı 3 hüquqi və (və ya) fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər.

Kommersiya bankları nizamnamə kapitalının formalaşması üsuluna (dövlətin, xarici kapitalın iştirakı), ixtisaslaşmasına, ərazi fəaliyyətinə, həyata keçirilən əməliyyatların növünə və s. əlamətlərə görə fərqlənir. Kommersiya banklarının vəsaitləri şəxsi (nizamnamə fondu, ehtiyat fondu və s.) və cəlb edilmiş (müəssisələrin hesablarındakı vəsaitlər, müəssisələrin və əhalinin əmanətləri) vəsaitlərə bölünür.

Kommersiya banklarının investisiya əməliyyatları əsasən hökumətin və yerli hakimiyyət orqanlarının qiymətli kağızlarının alqı-satqısı ilə bağlıdır. 1929-1933-cü il Dünya İqtisadi Böhranından sonra ABŞ, Fransa və Böyük Britaniyanın kommersiya banklarına qeyri-bank sektorunun özəl müəssisələrindən qiymətli kağızlar almaq qadağan olundu. Bu qadağa bankların trast bölmələri vasitəsilə aradan götürüldü. Həmin bölmələr müştərilərin əmlakını (belə əmlakın 2/3-si müəssisələrin qiymətli kağızlarıdır) etibarnamə əsasında idarə edir. Kommersiya bankları hesablaşma-komission, ticarət-komission, faktorinq, lizinq əməliyyatlarını həyata keçirir, xarici filial şəbəkəsini genişləndirir və çoxmillətli konsorsiumlarda iştirak edir (bank sindikatları).

***İnvestisiya bankları***. Böyük Britaniyada emissiya evləri, Fransada iş bankları adlanan bu növ banklar emissiya-təşkilatçılıq fəaliyyəti üzrə ixtisaslaşmışdır. Uzunmüddətli yatırımlara ehtiyacı olan və səhm və obliqasiyaların

buraxılmasına çalışan dövlətin və ya müəssisənin tapşırığı ilə investisiya bankları qiymətli kağızların ölçüsü, şərtləri, müddətinin müəyyən edilməsi və növlərinin seçilməsi, həmçinin onların yerləşdirilməsi və təkrar dövriyyəsinin təşkili ilə bağlı məsələləri öz üzərinə götürür. Belə bank növünün təsis edilməsi buraxılan qiymətli kağızların alınmasını təmin edir. İnvestisiya bankları həmin qiymətli kağızları öz hesabına alır, satışını təşkil edir, bunun üçün bank sindikatları təşkil edir, səhm və obliqasiyaların alıcılarına ssudalar verir. İnvestisiya banklarının kredit sistemində payı çox olmasa da, ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayırlar.

***Əmanət bankları***. ABŞ-da qarşılıqlı əmanət bankları, Almaniyada əmanət kassaları adlanan bu növ banklar yerli əhəmiyyətli kiçik kredit təşkilatlarıdır və adətən dövlətə məxsus olur və ya dövlətin nəzarətində olur. Əmanət banklarının passiv əməliyyatları əhalidən əmanətlərin yığılmasını nəzərdə tutur. Aktiv əməliyyatlara isə ipoteka kreditləri, bank ssudaları, özəl və dövlət qiymətli kağızlarının alınması daxildir. Əmanət bankları kredit kartları buraxır.

***İpoteka bankları***. Daşınmaz əmlakın təminatı altında uzunmüddətli kreditlər verir. Bu bankların passiv əməliyyatları ipoteka obliqasiyalarının buraxılmasıdır. İpoteka krediti istehsal və yaşayış təyinatlı torpaq və qurumların təminatı altında bank və kredit təşkilatları tərəfindən verilir. İpoteka krediti kənd təsərrüfatı, yaşayış və digər növ tikinti sahələrində tətbiq olunduğundan bu sferada istifadə olunan kapitalın da həcmi artır.

Kommersiya bankları, avadanlıq təchiz edən firmalar və maliyyə kompaniyaları maşın və avadanlıqların girovu ilə sənaye-ticarət kompaniyalarına kredit verə bilər. Bu növ kreditlər də ipoteka kreditləri adlanır. İpoteka kreditləri üzrə faiz dərəcələri tələb və təklif, həmçinin kredit götürənin ödəmə qabiliyyəti və verilən kreditin məbləği nəzərə alınmaqla müəyyən edilir. İpoteka krediti bazar iqtisadiyyatı olan dövlətlərdə geniş yayılmışdır. Adətən belə kreditlərdə faiz dərəcələri təxminən 10-20% arasında dəyişir.

Azərbaycanda da bu növ kredit verilir, baxmayaraq ki, ayrıca ipoteka bankları fəaliyyət göstərmir. İpoteka kreditlərinin verilməsi AR Mülki Məcəlləsi və 15 aprel 2005-ci il tarixli İpoteka haqqında AR Qanunu ilə tənzimlənir. AR Mülki Məcəlləsinin 269.4-cü və İpoteka haqqında AR Qanununun 1-ci maddəsinə əsasən ipoteka öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq daşınmaz əşyaların və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyaların girovudur (3, 180; 5). Onu da qeyd edək ki, Respublikamızda ipoteka kreditlərinin bir növü də yaşayış sahəsinin alınması üçün ipoteka kreditlərinin verilməsidir. Bu növ kreditlər həm bankların öz daxili vəsaiti hesabına, həm də Mərkəzi Bankın nəzdində yaradılmış Azərbaycan İpoteka Fondunun müvəkkil bankları təkrar maliyyələşdirməsi vasitəsilə verilə bilər. Bu növ kreditin özünəməxsus xüsusiyyəti ondadır ki, kredit yalnız yaşayış sahəsinin alınması üçün verilir və həmin yaşayış sahəsi müştərinin istifadəsinə verilmək şərtilə kredit müddətində krediti verən bankda girovda qalır (yəni ipoteka ilə yüklü edilir).

***İstehlak krediti bankları***. Adətən uzunmüddətli istifadə üçün bahalı əşyaların alınması üçün qısamüddətli və ortamüddətli ssudalar verən banklardır. İstehlak krediti - əhalinin tələbatının ödənilməsi məqsədilə verilir. Bu növ kreditlər hesabına adətən məişət əşyaları, avtomobil, əmlak və s. əldə edilir. Lakin təmir məqsədilə verilən kreditlər də istehlak krediti qrupuna daxildir.

***Bank holdinqi***. Bank qrupları bank işində əhəmiyyətli rol oynayır. Bank qrupuna əsas şirkət (holdinq), filial (törəmə cəmiyyət), həmçinin nümayəndəlik, agentlik və bölmələr də daxildir. Bank holdinqi digər kompaniyaların səhmlər paketinə və qiymətli kağızlarına malik olmaqla həmin qiymətli kağızlarla əməliyyat həyata keçirir. Belə əməliyyatları adətən təmiz holdinqlər həyata keçirir. Qarışıq holdinqlər qeyd edilən əməliyyatlarla yanaşı, iqtisadiyyatın müxtəlif sferalarında sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Holdinqlər müxtəlif hüquqi formalarda: məhdud məsuliyyətli cəmiyyət, ortaqlıq, səhmdar cəmiyyət və s. yaradıla bilər. Səhmdar cəmiyyəti formasında fəaliyyət göstərən holdinqlər geniş yayılmışdır.

Banklar haqqında AR Qanununa əsasən bank holdinq şirkəti bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisinin yerləşdiyi ölkənin bank tənzimləməsi orqanları tərəfindən tənzimlənən və nəzarət olunan şirkətdir. Törəmə bank nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və ya bank holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir. Bankın filialı hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir. Bankın şöbəsi hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, onun Respublika ərazisində depozitlər cəlb edən və (və ya) köçürmə, hesablaşma-kassa əməliyyatları aparan ayrıca bölməsidir. Bankın nümayəndəliyi hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir (4).

**Maliyyə-bank sektorunun inkişafının müasir tendensiyaları.** XXI əsrdə kommersiya bankları iqtisadiyyatı inkişaf etmiş dövlətlərin maliyyə və pul-kredit sferasında xüsusi yer tutur. Onlar öz ehtiyatlarından istehsal prosesinin qısamüddətli və uzunmüddətli kreditləşməsi, əmtəələrin bazara daşınması, ticarət-sənaye müəssisələrinin ölkə daxilində və xaricində rəqabət mövqeyinin möhkəmlənməsi üçün istifadə edirlər. Banklar kommersiya sirri haqqında qanunvericiliyin tələblərinə riayət etməklə istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir göstərə bilirlər.

Bundan başqa, kommersiya bankları emissiya fəaliyyətində də mühüm yer tutmaqla fond əməliyyatlarında öz paylarını artırmağa çalışırlar. Bankların

birja brokerləri qarşısında üstünlüyü ondadır ki, onlar səhm və obliqasiyaların yerləşdirilməsinə qədər müştəriyə vəsait verə bilərlər. Bundan əlavə, kompaniyalar adətən fond bazarına məhz banklarla özlərinin ödəniş qabiliyyətini sübuta yetirən uzun danışıqlardan sonra çıxırlar (8).

Banklarla yanaşı, maliyyə bazarının əsas kreditorları kimi ticarət-sənaye kompaniyaları və ixtisaslaşmış maliyyə institutları çıxış edir. Onlar qısamüddətli kreditlərin əsas mənbələri rolunu oynayırlar. Maliyyə bazarının pul sektoru həmin firmalara qısamüddətli pul vəsaitlərini likvid vasitələrə yerləşdirməyə və gəlir əldə etməyə imkan verir. İxtisaslaşmış maliyyə təsisatları açıq tipli investisiya kompaniyalarıdır. Burada bütün investorlar səhmdar cəmiyyətlərdir, investorlar səhmdar kapitalı maliyyə bazarında dövriyyə vəsaiti qismində çıxış edən ssuda kapitalına yerləşdirirlər. İxtisaslaşmış maliyyə institutlarına: sığorta şirkətləri (həyat və əmlakın sığortalanması fondları); dövlət müəssisələri və firmaların pensiya fondları; ipoteka kompaniyaları (öz ehtiyatlarını daşınmaz əmlak sahiblərinin borc öhdəliklərinə yerləşdirirlər). Bütün bu təsisatlar fond qiymətli əşyalarının (səhm, obliqasiya, ipoteka) saxlayıcılarıdır. Bu əşyaları onlar ya bilavasitə müştərilərdən, ya da vasitəçilərin köməyilə əldə edirlər. Bütün ixtisaslaşmış maliyyə təsisatları öz yığımlarını daha uzunmüddətli öhdəliklərə yatırırlar (9).

1980-ci illərdən başlayaraq, maliyyə bazarının iştirakçıları arasında rəqabətin artması şəraitində onların fəaliyyətinin diversifikasiyası baş verirdi. Artıq normativ-hüquqi aktlar firmaların həyata keçirdiyi əməliyyatlar və göstərilən xidmətlərin sayını artırır, vəsaitlərin cəlb edilməsinə qoyulan məhdudiyyətlər aradan qaldırılmağa başlayırdı. Eyni zamanda, kapitalın hərəkəti ilə bağlı qanunvericilik məhdudiyyətləri aradan qaldırılır, maliyyə-kredit sferasının tənzimlənməsi prinsipləri dəyişdirilirdi, yəni inzibati tənzimləmə metodlarından iqtisadi tənzimetmə metodlarına keçid baş verirdi. Bu proses maliyyə sferasının yenidən tənzimlənməsi adlanır.

Banklar depozitlərin cəlb edilməsi, kredit verilməsi, hesablaşma kassa əməliyyatlarının aparılması, veksellərin uçotu, qarantiyaların verilməsi, konsultasiya xidməti kimi ənənəvi bank əməliyyatları ilə yanaşı, qeyri-bank əməliyyatları da, məsələn, turist biznesi kimi xidmətləri də göstərməyə başladı. Eyni zamanda, digər maliyyə-kredit təsisatları tərəfindən ənənəvi bank əməliyyatlarının aparılmasına qoyulan məhdudiyyətlər aradan qaldırılmağa başladı. Bu isə, öz növbəsində həmin təsisatların gəlirlərinin artmasına və bankların bank əməliyyatı sahəsində inhisarçılığına son qoyurdu. Depozitlərin cəlb edilməsi zamanı faiz məhdudiyyətləri də aradan qaldırılırdı.

Yenidən tənzimetmə nəzarət orqanlarını maliyyə bazarının iştirakçıları olan qeyri-bank təsisatlarının fəaliyyətinə nəzarəti gücləndirməyə məcbur edirdi. Lakin bazarın göstərdiyi maliyyə xidmətlərinin çətinləşməsi, maliyyə aktivlərinin yeni formalarının yaranması, bazarın iştirakçılarının sayının artması və beynəlmiləlləşməsi şəraitində banklar və digər institutlar arasında funksiya müxtəlifliklərinin azalması iqtisadi tənzimetmə metodlarının genişlən-

dirilməsini tələb edirdi.

Yenidən tənzimetmə bank biznesinin iqtisadiyyatını dəyişir, banklar arasında müştəri və kapital cəlb etmə rəqabətini artırır, bankların birləşməsi zərurətini meydana çıxarırdı. Qloballaşma və yenidən tənzimetmənin nəticəsində mərkəzi bankların funksiya və rolunda da dəyişikliklər baş verirdi. Mərkəzi bankların nəzarət funksiyası genişlənirdi.

1990-cı illərdən başlayaraq, iri banklar elm və texnikanın yeniliklərini bank fəaliyyətinə tətbiq etməyə başladı. Bank fəaliyyətinin tamamilə kompüterləşdirilməsi başa çatdırıldı. Yeni bank proqramlarının alınması, bank xidmətlərində elektron vasitələrdən istifadənin genişlənməsi prosesi baş verirdi. Bütün bu proseslər külli miqdarda maliyyə xərcləri tələb edirdi, bu xərcləri qarşılaya bilməyən banklar ya digər iri banklarla birləşir, ya da ləğv olunurdu. Müasir dövrdə banklar təxminən 150 növ bank əməliyyatı həyata keçirir. Bu əməliyyatlar tək banklar tərəfindən yox, digər maliyyə təsisatları tərəfindən də göstərilir. XX əsrin sonlarından başlayan dünya ticarətinin intensiv inkişafı və kapitalın beynəlxalq axınının səbəbi bir çox iri bankların, ticarət şirkətlərinin, sənaye qruplarının öz inkişaf perspektivlərini beynəlxalq miqyasda genişlənmə ilə əlaqələndirməsi ilə bağlı olmuşdur (11).

Biznes və maliyyənin bu səviyyədə qloballaşmasının əsasında növbəti tendensiyalar dayanır: 1) elmi-texniki inkişafa çatma (kompüter və telekommunikasiya); 2) sənaye cəhətdən inkişaf etmiş ölkələrdə dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması; 3) kapitalın beynəlxalq axınının artması. Qeyd edilən tendensiyalar dünya iqtisadiyyatında inteqrasiya proseslərinə şərait yaratmışdır. Maliyyə bazarları sistemi qlobal səviyyədə fəaliyyət göstərirdi. Nəticədə müxtəlif dövlətlərin aparıcı maliyyə mərkəzlərini birləşdirən dünya maliyyə şəbəkəsi formalaşdı. Bu mərkəzlər arasında əlaqələrin güclənməsi 3 əsas aspektə malik maliyyə inqilabına səbəb olmuşdu: 1) beynəlxalq maliyyə institutlarının qlobal iştirakı; 2) beynəlxalq maliyyə inteqrasiyası; 3) maliyyə innovasiyalarının intensiv inkişafı (6, 19).

Maliyyə inqilabının birinci aspekti kapitalın artan axını dövlətlər arasında maliyyə rəqabətinin güclənməsinə səbəb olmuşdur. Bu tendensiya müxtəlif ölkələrin hökumətlərinə iqtisadiyyata müdaxilənin məhdudlaşdırılmasında əhəmiyyətli dərəcədə təsir göstərir, kapitalın beynəlxalq hərəkətinin liberallaşmasına şərait yaradır.

Maliyyə inqilabının ikinci aspekti beynəlxalq və daxili maliyyə bazarları arasında maneələrin aradan qaldırılması və həmin bazarlar arasında münasibətlərin dərinləşməsi ilə bağlıdır. Maliyyə kapitalı sərbəst, məhdudiyyət olmadan daxili bazardan beynəlxalq bazara və əksinə yerdəyişə bilər.

Maliyyə inqilabının üçüncü aspekti yeni maliyyə vasitələri və texnologiyalarının yaradılmasını nəzərdə tutan maliyyə innovasiyalarıdır. Texnoloji innovasiyalar qloballaşma prosesinə bilavasitə təsir göstərir. Rabitə vasitələrinin təkmilləşməsi bank əməliyyatlarının həyata keçirilməsi həcmini və surətini artırır, bu isə maliyyə vəsaitlərinin axınının artmasına səbəb olur. Telekom-

munikasiyalar maksimal gəlir və minimal xərclər şərtilə dünya üzrə maliyyə axınının bölüşdürülməsinə köməklik göstərir.

Maliyyə bazarlarının qloballaşması prosesində fond birjaları da əhəmiyyətli dəyişikliklərə məruz qalır. Birjaların birləşməsi prosesi intensivləşir. Hətta bəzi ölkələrdə yalnız bir birja fəaliyyət göstərir.

İqtisadi münasibətlərin qloballaşmasının digər bir meyarı ondadır ki, beynəlxalq, millət üstü maliyyə institutlarının rolu artmışdır. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı qrupu belə qurumlar arasında daha geniş yayılmışdır. Vahid Avropanın iqtisadiyyatına Avropa Mərkəzi Bankı böyük təsir göstərir. Avro zona ölkələri milli valyutaya, iqtisadiyyatın valyuta-kredit tənziminə və pulların emissiyasına münasibətdə demək olar ki, suverenliyi itirmişdir. Hazırda bankların birləşməsi prosesi daha çox müşahidə olunur. Bu prosesdə nəinki xırda, rəqabətə tab gətirə bilməyən banklar, həmçinin iri banklar və transmilli korporasiyalar iştirak edir.

Ssuda kapitalının dünya bazarında, kapitalın beynəlxalq miqrasiyası sferasında transmilli banklar aparıcı rol oynayır. Transmilli bankların fəaliyyəti aparılan əməliyyatların əksər hissəsinin xarici olması səbəbindən beynəlxalq xarakter daşıyır. Belə bankların çoxsaylı xarici filialları olur. Transmilli banklar üçün beynəlxalq bank fəaliyyətinin kartelizasiyası xarakterikdir.

Bank sistemlərinin müasir inkişaf tendensiyaları və bu tendensiyaların doğurduğu maliyyə inqilabı Respublikamızın bank sektorunun formalaşması və inkişafına da müsbət təsir göstərmişdir. Azərbaycan bank sistemi ilə bağlı məsələlər ətraflı şəkildə ayrıca paraqrafda göstərildiyindən, bu paraqrafda yalnız ümumi xarakterli məsələlərə toxunulmuşdur.

1991-ci ildə Respublikamızın yenicə müstəqillik əldə etdiyi dövrdə bir neçə bank vardısa, hazırda 36 bank və kredit təşkilatı fəaliyyət göstərir (12). Azərbaycanda bank sisteminin formalaşmasında və müasir durumunda həm iqtisadi, hüquqi, həm də siyasi amillər əhəmiyyətli rol oynamışdır. Hər 3 amil bir-biri ilə qarşılıqlı əlaqədədir. Məsələn, Respublikamızın 2000-ci il tarixdə Avropa Şurasına üzv olması (siyasi amil), Avropa investorlarının ölkəyə marağının artması (iqtisadi amil) və həmin investorların ölkədə normal fəaliyyətini tənzimləyən normativ-hüquqi aktın qəbul edilməsi (hüquqi amil). Bizim fikrimizcə, aşağıdakı müddəalarla Azərbaycanın iqtisadi mühitinin, əsasən də bank sektorunun bugünkü səviyyədə olmasına xeyli təsir göstərmişdir:

- Respublikamızın nüfuzlu beynəlxalq təşkilatlara üzv olması (xüsusilə də, BMT, konkret olaraq, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Şurası).
- 1994-cü ildə Əsrin Müqaviləsinin imzalanmasından sonra ölkəyə çoxsaylı investisiya axını;
- İqtisadiyyatda azad bazar münasibətlərinə, sərbəst rəqabətə və dövlətin məhdud müdaxiləsinə şərait yaradılması;
- Hökumətin apardığı daxili və xarici siyasətin nəticəsi kimi ölkədə siyasi

sabitliyin, sonra isə əlverişli iqtisadi mühitin yaranması;

- Sabit və əlverişli iqtisadi mühitə xarici kapitalın cəlb edilməsi;
- Uzunmüddətli investisiya yatırımları;
- Regional iqtisadi inteqrasiya, əsasən də iqtisadi və ticarət sferasında iri layihələrin realizəsi;
- Beynəlxalq maliyyə institutlarının həm dövlət layihələrinə, həm də kiçik və orta sahibkarlığın inkişafına maliyyə vəsaiti ayırmışdır;
- Bank hüququnun, konkret olaraq, bank fəaliyyətinin müxtəlif sahələrinin tənzimlənməsi sahəsində beynəlxalq praktikadan, xarici dövlətlərin bank təcrübəsindən yararlanma.

Azərbaycanın bank sistemi AR Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir. Azərbaycanda Mərkəzi Bankın və kredit təşkilatlarının fəaliyyəti AR Konstitusiyası, AR Mülki Məcəlləsi, AR Mərkəzi bankı haqqında Qanun, Banklar haqqında Qanun, Kredit İttifaqları haqqında AR qanunları, Mərkəzi Bankın bunlara müvafiq olaraq qəbul edilmiş normativ aktları, AR-in digər normativ hüquqi aktları, habelə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

16 yanvar 2004-cü il tarixli Banklar haqqında AR Qanununa əsasən cari bank fəaliyyəti ilə bağlı qərarları qəbul edərkən, kredit təşkilatları dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməz. Kredit təşkilatları qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata keçirməyə məcbur edilə bilməz. Kredit təşkilatlarının və dövlətin müvafiq öhdəlik götürdüyü hallardan başqa, bütün digər hallarda kredit təşkilatları dövlətin, dövlət isə kredit təşkilatlarının öhdəlikləri üçün məsuliyyət daşımır (4).

Bank sistemləri haqqında qeyd etdiyimiz fikirləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, bütün inkişaf etmiş dövlətlərin milli bank sistemləri eyni prinsiplər üzərində qurulmuşdur. 1694-cü ildə təsis edilmiş İngiltərə Bankının fəaliyyətindən sonra bank praktikasında formalaşmış ikipilləli bank sistemi mərkəzi banklara pul dövriyyəsi və nəzarət sahəsində xüsusi səlahiyyətlər verir.

Beynəlxalq iqtisadiyyatın və maliyyə bazarlarının inkişafı banklardan fərqlənən maliyyə institutlarının meydana gəlməsinə səbəb olmuşdur. Nəticədə banklar arasında rəqabət intensivləşmişdir. Bank sektorunun stabilliyinin qorunub saxlanması zərurəti bankların və qeyri-bank təsisatlarının həyata keçirdiyi əməliyyatlara qoyulan məhdudiyyətləri azaltmağa gətirib çıxarmışdı.

Yenidən tənzimləmə mərkəzi bankların funksiya və rolunun dəyişməsinə səbəb oldu. Rəqabətə tab gətirmək zərurəti iqtisadi fəaliyyət subyektlərini həyata keçirdikləri əməliyyatları genişləndirməyə sövq edirdi. Artıq milli və regional bazardan beynəlxalq bazara çıxış lazım idi.

İqtisadiyyatın və maliyyə bazarının qloballaşması iqtisadiyyatda inteqrasiya proseslərini, dünya maliyyə şəbəkəsinin inkişafını stimullaşdırırdı. XX

əsrin 70-80-ci illərindən Dünyanın demək olar ki, bütün dövlətlərini əhatə edən maliyyə inqilabı başlandı.

## ƏDƏBİYYAT


1. 10 dekabr 2004-cü il tarixli AR Mərkəzi Bankı haqqında AR Qanunu (19 iyun 2009-cu il tarixli dəyişiklikdən sonra AR Mərkəzi Bankı haqqında AR Qanunu adlanır).
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2011.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq Ədəbiyyatı, 2009.
4. Banklar haqqında Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 16 yanvar 2004-cü il № 590-IIQ.
5. İpoteka haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 15.04.2005, № 883-IIQ.
6. Вешкин Ю.Г., Авагян Г.Л. Банковские системы зарубежных стран. Курс лекций. М., Экономиста, 2004.
7. Жарковская Е.П. Банковское дело. Учебник. 4-е изд., испр. и доп. М., Омега-Л, 2005.
8. Consolidation in the Financial Sector, GROUP OF TEN, January 2001.
9. Legal Systems and Bank Development. Emre Ergungor. Federal resentbank of Cleveland, February 2002.
10. Smith V.C. The Rationale of Central Banking, and the Free Banking Alternative. 1936. Русский перевод: ИнститутНациональнойМоделиЭкономики, 1996.
11. The Banking Supervision (Fees) Regulations 2001. Financial ServiceAuthority, April 2001.
12. www.banks.az
13. www.moimirknig.com


## РОЛЬ БАНКОВСКИХ СИСТЕМ В РЕГУЛИРОВАНИИ РЫНОЧНОЙ ЭКОНОМИКИ


**Р.Н.МАМЕДЛИ**



**РЕЗЮМЕ**

В статье рассматривается роль банковских систем в регулировании рыночной экономики на основе банковского законодательства Азербайджанской Республики и международной практики, а также критического анализа научных позиций по данному вопросу. Отмечается, что, выполняя различные функции, банки входят в сложные отношения между собой и с другими хозяйственными субъектами, и таким образом, выполняют незаменимую роль в регулировании рыночной экономики. В данном контексте автор особо уделяет внимание исследованию исторического развития банковской системы, общих свойств ее построения, различных видов банков (центральные, коммерческие, инвестиционные, сберегательные, ипотечные, потребительско-кредитные банки, банковские холдинги), входящих в банковскую систему, развитию финансово-банковского сектора.



**Ключевые слова:** коммерческие банки, денежный оборот, рыночная экономика, денежные операции, банки, банковские системы, банковская деятельность, международная экономика, торговля, кредитные организации.

**ROLE OF BANKING SYSTEMS IN REGULATION OF MARKET ECONOMY**

**R.N.MAMMADLI**

**SUMMARY**

In this article the role of banking systems in the regulation of the market economy is discussed on the basis of existing disputes in the legal literature, banking legislation of the Republic of Azerbaijan and international practice. It is noted that, by performing various functions, banks are getting in the complex relationships among themselves and with other economic actors, and thus, perform an irreplaceable role in the regulation of the market economy. In this context, the author focuses on a detailed study of the historical development of the banking system, the general properties of building banking systems, different types of banks (central, commercial, investment, savings, mortgage, consumer-credit banks, bank holdings) that are included in the banking system, development financial and banking spheres.

**Key words:** commercial banks, money turnover, market economy, monetary operations, banks, bank systems, bank activity, international economy, trade, the credit organizations.